# Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı yeni tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikasının İqtisadiyyat naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini*
*Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Maliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini*
*“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti*
*Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri.*

2. “Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 14 aprel tarixli 1203 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 4, maddə 193; 2005-ci il, 10, maddə 968; 2007-ci il, 12, maddə 1284) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə İsveçrə Federal Şurası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 aprel 2009-cu il
226

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773)**
2. 8 fevral 2012-ci il tarixli **2004** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Azərbaycan” qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 112**)
3. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 16 may 2014-cü il, 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 5, maddə 477** )
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
5. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
6. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)
7. 2 mart 2020-ci il tarixli **1878** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 3 mart 2020-ci il, 48 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 263**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773) ilə** 1-ci bəndində “**Elçin Əmirbəyov**” sözləri “**Murad Nəcəfbəyli**” sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **2004** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Azərbaycan” qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 112**) ilə “**Zaman Novruzov - Azərbaycan Respublikası “Azərsu” Açıq**

**Səhmdar Cəmiyyətinin vitse-prezidenti**” sözləri “**İlqar Tağıyev - Azərbaycan Respublikası “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti** ” sözləri ilə əvəz edilmişdir və “**Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini** ” sözlərindən sonra “**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi** ” sözləri əlavə edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 16 may 2014-cü il, 101, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 5, maddə 477** ) ilə 1-ci hissəsində “**iqtisadi inkişaf**” sözləri “**iqtisadiyyat və sənaye**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən “**və sənaye**” sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində “**vergilər nazirinin müavini**” sözləri “**vergilər nazirinin birinci müavini**” sözləri ilə, “**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi** ” sözləri “**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**” sözləri ilə və “**Murad Nəcəfbəyli**” sözləri “**Əkrəm Zeynallı**” sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində “**Sahir Məmmədxanov - Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini** ” sözlərindən sonra “**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** ” sözləri əlavə edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində “**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini** ” sözləri çıxarılmışdır.

[2] 2 mart 2020-ci il tarixli **1878** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 3 mart 2020-ci il, 48, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 263**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın həmsədri**~~

| | |
|---|---|
| ~~Şahin **Mustafayev**~~ | ~~- Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~ |
| | ~~**Komissiyanın üzvləri**~~ |
| ~~Xələf **Xələfov**~~ | ~~- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Toğrul **Musayev**~~ | ~~- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini~~ |
| ~~Azər **Bayramov**~~ | ~~- Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~ |
| ~~Sahir **Məmmədxanov**~~ | ~~- Azərbaycan Respublikası *vergilər nazirinin birinci müavini*~~ |
| ~~*Elmir **Vəlizadə***~~ | ~~*- Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*~~ |
| ~~Səfər **Mehdiyev**~~ | ~~- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Avtandil **Babayev**~~ | ~~- Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~Məmməd Sadiq **Quliyev**~~ | ~~- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini~~ |
| ~~İlqar **Tağıyev**~~ | ~~- Azərbaycan Respublikası “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti~~ |
| ~~*Əkrəm **Zeynallı***~~ | ~~- Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri~~ |